Doktorantların və gənc tədqiqatçıların apardığı elmi tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaq məqsədilə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 5.5.10- cu bəndini rəhbər tutaraq **əmr edirəm:**

1. 15-16 oktyabr 2026-cı il tarixlərində Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransı (NASCO29) Naxçıvan Dövlət Universitetində keçirilsin, konfrans “Şəhərsalma və Memarlıq ili”nə həsr edilsin.

2. "Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransının (NASCO29) Əsasnaməsi" təsdiq edilsin (1 nömrəli əlavə).

3. “Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransının (NASCO29) Tədbirlər Planı” təsdiq edilsin (2 nömrəli əlavə).

4. “Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransının (NASCO29) Təşkilat Komitəsi” təsdiq edilsin (3 nömrəli əlavə).

5. "Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransının (NASCO29) Elmi Komitəsi” təsdiq edilsin (4 nömrəli əlavə).

6. Ali təhsil müəssisələrinin rektorları və elmi-tədqiqat institutlarının direktorları doktorantların və gənc tədqiqatçıların məqalələrini 2026-cı il 1 iyun tarixinədək Əlavə 1-də qeyd edilən qaydada Naxçıvan Dövlət Universitetinə təqdim edilməsini təmin etsinlər.

7. Naxçıvan Dövlət Universiteti (Elburus İsayev) konfransın yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaratsın, konfransın proqram və materiallarının nəşr edilməsini və konfransın nəticələri barədə Elm və Təhsil Nazirliyinə hesabatın təqdim olunmasını təmin etsin.

8. Elm, ali və peşə təhsili şöbəsi (Turxan Süleyman) və Azərbaycan Respublikasının Təhsil İnstitutu (Elnur Əliyev) konfransın keçirilməsi ilə əlaqədar lazımi dəstək göstərsinlər.

9. Təhsilin iqtisadiyyatı şöbəsi (Leyla Abbaslı), Maliyyə şöbəsi (Vüqar Əsgərov) və Əsaslı Tikinti və Təchizat İdarəsi (Valeh Mirzalıyev) konfransın keçirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsini təmin etsinlər.

10. Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsi (Qorxmaz Əliyev) əmrin çoxaldılıb ali təhsil müəssisələrinə və elmi-tədqiqat institutlarına göndərilməsini təmin etsin.

11. İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi (Səbuhi Rzayev) bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini və "Azərbaycan müəllimi” qəzetində dərc olunmasını təmin etsin.

12. Əmrin icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə edilsin.

***Emin ƏMRULLAYEV,***
***Azərbaycan Respublikasının elm və təhsil naziri***
***15 may 2026-cı il***
***3-29/3-2-226F/2026***